ULUSLARARASI TÜRK LEHÇE ARAŞTIRMALARI DERGİSİ (TÜRKLAD), 10. CİLT, 1. SAYI, 2026, 71 – 78. S., TÜRKİYE

https://doi.org/ 10.30563/turklad.1865963

İntihal / *Plagiarism*

*This article was checked by* turnitin programında bu makale taranmıştır

Makale Bilgisi / *Article information*

| | |
|---|---|
| Makale Türü / *Article types* | : Araştırma Makalesi / *Research article* |
| Geliş Tarihi / *Received date* | : 17.01.2026 |
| Kabul Tarihi / *Accepted date* | : 05.05.2026 |
| Yayın Tarihi / *Date published* | : 20.06.2026 |

Atıf / *Citation*

Məhərrəmli, Q. (2026). Sulduz qarapapaqlarında yallı rəqs sistemi. *Uluslararası Türk Lehçe Araştırmaları Dergisi / International Journal of Turkic Dialects (TÜRKLAD)*. 10. Cilt, 1. Sayı, 71-78.

# SULDUZ QARAPAPAQLARINDA YALLI RƏQS SİSTEMİ

*The yallı dance system among the sulduz karapapags*

**QİYMƏT MƏHƏRRƏMLİ**[1]

**Xülasə**

Yallılar – el birliyini ifadə edən ən möhtəşəm folklor nümunələrindən sayılır. Bu qədim xalq rəqsi Güney Azərbaycanda yaşayan Sulduz qarapapaqları arasında da çox geniş yayılmış, toy-düyünlərdə, müxtəlif el mərasimlərində və bayram şənliklərində toplum halında icra olunan qədim incəsənət növüdür.

"Yallı" rəqsinin yaradıcısı olan qədim insanlar kreativ düşüncəyə malik insanlar olublar. Yallının quruluşunda, icrasında bir yaradıcılıq, bir teatrallaşma var. Bu xalq rəqsinin quruluşundakı orijinallıq, bənzərsizlik, sərbəst, lakin qanunauyğun şəkildə nizamlanmış əl-qol-ayaq hərəkətləri, jest və mimikalar bütövlükdə götürdükdə, insanların bir-biri ilə mesajlaşma, enerji ötürmə, birlik, yekdillik, sevgi-məhəbbət kimi hiss və duyğularının maddiləşdirilmiş, hərəkətlə ifadə olunan sənət sahəsində birləşmə mexanizmi kimi özünü göstərir.

Sulduz qarapapaqlarının bütün el şənlikləri, toy-düyünləri yallı ilə başlayıb, yallı ilə bitir. Qarapapaq ağsaqqallarının, ağbirçəklərinin söylədiklərinə görə, əvvəllər bu oymaqlarda ilin hər gününün özünə uyğun bir yallısı mövcud imiş. Yəni, hər münasibətlə bir yallı icra olunurmuş. Bunlara əsasən əmək yallıları aid imiş. Lakin zaman keçdikcə bu oyunların bəziləri tamamilə unudulub sıradan çıxsa da, bir çoxu indi də olduğu kimi qorunub-saxlanmaqdadır. Hazırda el arasında yaşadılan yallılara misal olaraq, "İrəvan yallısı"nı, "Dalan", "Üç təpik", "Yan basma", "Susqayı", "Qaraxan", "Həbilban/Həbirban", "Qazayağı", "Çeçələ barmaq" və sair rəqs havalarını göstərmək olar.

Məqaləmizdə Sulduz qarpapaqlarının bu qədim rəqs sisteminin növ və janrları, quruluşu, xarakterik xüsusiyyətləri və günümüzə qədər gəlib çatmış mühüm elementləri haqqında ətraflı məlumat verilir.

**Açar Sözlər:** Yallı, Sulduz, Qarapapaqlar, mərasim, oyun havaları.

[1] Doç.Dr. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Cənubi Azərbaycan ədəbiyyatı şöbəsi, Bakı/Azərbaycan. El-mek: qiymet-555@mail.ru
**ORCİD ID:** https://orcid.org/0000-0002-3572-1284

**Abstract**

Yalli dances are considered one of the most magnificent examples of folklore expressing the unity of the people. This ancient folk dance is very widespread among the Sulduz Karapapags living in South Azerbaijan and is an old art form performed collectively at weddings, various folk ceremonies, and festive celebrations. The ancient people who created the "Yalli" dance were people with creative thinking. Creativity and theatricality are present in the structure and performance of the Yalli. The originality and uniqueness in the structure of this folk dance, the free yet legally regulated hand-arm-foot movements, gestures, and facial expressions, when considered as a whole, manifest themselves as a mechanism that embodies and expresses communication, energy transfer, unity, consensus, and love among people in an art form.

All folk festivals and weddings of the Sulduz Karapapağ people begin and end with a yallı. According to the elders and senior members of the Karapapağ people, in the past, these tribes had a suitable yallı for every day of the year. That is, a yallı was performed for every occasion. These were mostly work-related yallis. However, although some of these dances have been completely forgotten and lost their value over time, many have been preserved to this day. Examples of yallis performed among the people today include "İravan yallisi," "Dalan," "Üç tepik," "Yan basma," "Susqayı," "Karahan," "Habilban/Habirban," "Gazayağı," "Çeçele barmak," and other dance forms. Our article provides detailed information about the types, structure, characteristics, and important elements of this ancient dance system of the Sulduz Karapapağ people that has survived to the present day.

**Keywords:** Yallı, Sulduz, Karapapaks, folk ceremony, dance tunes.

## 1. Giriş

Yallılar – el birliyini ifadə edən ən möhtəşəm xalq yaradıcılığı nümunələrindən sayılır. Bu qədim xalq rəqsləri Sulduz qarapapaqları arasında da çox geniş yayılmış, toy-düyünlərdə, müxtəlif el mərasimlərində və bayram şənliklərində toplum halında icra olunan qədim incəsənət növlərindəndir.

“Yallı” rəqsindən söz düşəndə ilk ağıla gələn bu olur ki, həmin rəqsin yaradıcısı olan qədim insanlar kreativ düşüncəyə malik olublar. Bu rəqsin quruluşunda, icrasında bir yaradıcılıq, bir teatrallaşma var. Yallı rəqsində yenilikçilik, novatorluq, ideyalılıq, qeyri-adi düşüncə məhsulunu reallaşdırmaq kimi xüsusiyyətlər həyata keçirilir.

Yallıların quruluşundakı orijinallıq, bənzərsizlik, sərbəst, lakin qanunauyğun şəkildə nizamlanmış əl-qol-ayaq hərəkətləri, jest və mimikalar bütövlükdə götürdükdə, insanların bir-biri ilə mesajlaşma, enerji ötürmə, birlik, yekdillik, sevgi-məhəbbət kimi hiss və duyğularının maddiləşdirilmiş, hərəkətlə ifadə olunan sənət sahəsində birləşmə mexanizmi kimi özünü göstərir.

Yuxarıda da qeyd etdiyimiz kimi, xalq rəqslərinin quruluşundakı orijinal, bənzərsiz, sərbəst, lakin qanunauyğun şəkildə nizamlanmış mexanizmi işləyib hazırlayan əsas hərəkətverici qüvvə xalq içərisində mövcud olmuş kreativ düşüncəyə malik ayrı-ayrı yaradıcı insanlardır. Yəni, rəqslər, xüsusilə də, haqqında söz açdığımız “Yallı” rəqslərinin “quruluşçu rejissoru” kreativ ideyalar müəllifi olan, xalq arasından çıxmış, barəsində məlumatımız olmayan qədim insanlardır. Rəqslər onu yaradan hər hansı bir xalqın həyatında olduqca böyük əhəmiyyət daşıyan mədəniyyət və incəsənət növüdür. Musiqinin dili və milliyyəti olmadığı kimi, rəqsin də

dili və milliyyəti olmur. Təsadüfi deyildir ki, ürəyəyatımlı istənilən dünya musiqisinin sədaları altında qəlb oxuyur, bədən ehtizaza gəlir, insan əzaları ritmik hərəkətlərə köklənir.

Toy və şənliklərimizdə hansı musiqilər ifa olunur-olunsun, qarazurnada çalınan yallı havalarına meydan veriləndə bütün duyğular cövlan edir, hisslər coşur, qan qaynayır, istər-istəməz hər kəs ayağa qalxıb yallı gedən adamların cərgəsinə qoşulmaqdan özünü saxlaya bilmir. Başqa havalarda tək ifaya üstünlük verilirsə, yallılarda dəstə halında, elliklə oyun nümayiş etdirilir ki, bu da xalqın birlik arzusunu özündə əks etdirən milli-mənəvi duyğularından qaynaqlanan xüsusiyyətləri özündə ehtiva edir.

**2. Oğuz ellərində yallı**

"Kitabi-Dədə Qorqud" dastanlarımızın baş qəhrəmanı, Oğuz Yurdunun ağsaqqalı Dədə Qorqud söz söyləyib, boy boylardı. Onun məşhur bir deyimi bütün dövrlərdə mahiyyətinə varılmadan belə, dillərdə-ağızlarda dolaşmaqdadır:

Gəlinə ayran demədim mən Dədə Qorqud,

Ayrana doyuran demədim mən Dədə Qorqud.

İynəyə tikən demədim mən Dədə Qorqud,

Tikənə sökən demədim mən Dədə Qorqud.

Adətən, ailəyə başqa yerdən köçüb gələn gəlinin gəldiyi ocağa yad kimi davranması kimi səhv düşüncəyə, əri ilə onun ata-anası, qardaş-bacısı, doğmaları arasına nifaq, ədavət toxumu səpən bir kəs kimi qəbul edənlərə qarşı Dədəmizin bu misralarını örnək gətirirlər. Yəni, gəlin "ayıran" deyil, əksinə ailəyə sevinc, səadət, xoşbəxtlik, doğmalıq, birlik gətirən birisidir. Ayranla doymaq olmaz, yəni ayranla qarın doymaz. İynə elə iynədir, həm tikmək, bitişdirmək xüsusiyyəti, həm də sancmaq xüsusiyyəti var ("İynəli sözlər" anlamında – Q.M.). Tikən isə ancaq xoş məramlıdır, sökməz, dağıtmaz, qurar, yaradar, birləşdirər.

Yallı – oyun qurulandan sonra qız-gəlinlərdən hansılarınsa dəstəyə qoşulması ilə yaranan ayrılığı ifadə etmək üçün verilən addır (Yəni, qatığın nəhrəyə tökülərək çalxanması nəticəsində yağdan ayrılan içməli ayran mənasında deyil. "Dədəm Qorqud"dakı "gəlin-ayran" məsələsi də elə bu mahiyyəti daşıyır). Həmin qadın xeylaqları kişilərin yallı dəstəsinə qoşularkən, bir kişinin əlini digərinin əlindən aralayıb, oyuna daxil olur ki, bu zaman həmin hərəkətilə o, ayırmaq yox, dəstəni aralayıb yenidən birləşdirmək mənasına işarə edir. Beləliklə, yallıya sonradan daxil olan həmin qız-gəlinə ona görə "ayran" deyirlər ki, yallı gedən iki oğlanı bir-birindən ayırıb oyuna girmək fürsəti əldə edirlər. Yallıda bir para yazılmamış qayda-qanunlar kimi icra edilməli rəsm-rüsumlar vardır ki, bunlar məcburi, yaxud könüllü şəkildə yallı iştirakçıları tərəfindən qorunmalıdır. O cümlədən, yallı başlansın deyə, əvvəldə zərli-piləkli ağ və ya qırmızı tovlama dəsmalını o şəxsə tapşırardılar ki, bütün yallıları bacarsın və yallıbaşı çəkməkdə də üstün olsun (Pərizad, 2021: 95).

Güneyli araşdırmaçı Məhərrəm Pərizad tədqiqatında göstərir ki, Sulduzda Qarapapaqların ifa etdikləri yallı insanların cəm halında, qadınlı-kişili əl-ələ tutub bir sırada və dairə şəklində, toy-zurna, qoşa sümsüm və qoltuq dümbəgi ilə səsləndirilən havanın ritmi altında oynadıqları rəqsdir. Yallıların yalnız çalğıdan ibarət olan, eyni zamanda həm çalğı, həm də oxumaqla icra olunan növlərindən başqa, həm də yalnız ağızda ifa olunmaqla icra olunan növü də vardır.

Yallılar türk xalqlarının rəqs sistemi hesab edilir. Bu ad altında onlarca müstəqil rəqs toplanıb ki, onlar da üç yerə bölünür: yalnız musiqili, musiqili və vokal (səsli), bir də dil yallıları (musiqisiz ifa olunan). Dil yallıları musiqisiz ifa olunur. Bu yallı növü ən qədim oyun

hesab edilir. Çünki bunlar hələ musiqi alətləri icad edilməmişdən əvvəl düşünülmüş oyunlardır...(Nərimanoğlu, 2013: 7).

Həm bu mənbədən, həm də digər müxtəlif mənbələrdən alınan məlumatlara görə, əvvəllər “yollu”, sonralar “yelli”, lap sonralardan isə “yallı” şəklində bizə gəlib çatan bu milli rəqsimizin qəribə tarixçəsi vardır. İbtidai insanların ova gedərkən cığır, yol açma kimi adətinə uyğun olaraq, bu ritmik hərəkətin “Yollu” adlandırılması, eyni zamanda yel əsən zaman dağın yalına qalxaraq, əl-ələ tutub uçmaq arzularını ifadə etmək kimi məramlarından doğan simvolik ayinləri özündə ehtiva etdiyini göstərən “Yelli” adlı rəqs havası olduğunun göstərildiyi mənbələr də mövcuddur. Lakin Güneyli tədqiqatçı, şair Məhərrəm Pərizad öz araşdırmalarında bu rəqsin adının mahiyyətini atın yalı ilə müqaysə edir: “...Zənnimcə, “Yallı” sözü “yal” sözündən alınmış və “yal”+“lı” kimi qullanılan mürəkkəb bir sözdür. Necə ki, çaparda olan və dördnala gedən atların yalları dalğalanar, Yallı rəqsinin səfi də yallı gedənlərin atılıb-düşmələrilə dalğalanmalıdır. Və “yallı” sözü bu mənzuru yetirən bir islah olmalıdır!” (Pərizad, 2021: 97)

Tədqiqatçı alimlər Əhsən Rəhmanlı və Elçin Nağıyev də “Yallı” rəqsinin adının “yal” sözündən götürüldüyü versiyasına önəm verirlər. Lakin buradakı “yal” Məhərrəm Pərizadın dediyi “yal”dan (atın yalı) deyildir, əksinə tamamilə fərqli istilahdır.

Bəzən “Yallı”nı yala bənzədirlər. “Yal” yan-yana düzülmüş kiçik təpəciklərdir. Yallını oynayanlar da bir və ya iki cərgədə, bəzən də bir neçə cərgədə yan-yana düzülürlər. “Yal” – cərgədir, zəncir xəttidir. Türkiyədə “Yallı”ya Şimali Azərbaycanın cənub bölgəsindəki kimi “Halay” deyirlər. Bu isə özlüyündə toylarda və bayramlarda iki zurnaçı və nağaraçının müşayiəti ilə oynanan kollektiv rəqs növüdür. Zurnaçının biri solist olaraq melodiyanı ifa edir, ikinci zurnaçı isə müşayiətçidir, yəni dəm (züy) tutur. Bəzən “Yallı”da bir zurnaçı və bir nağaraçalan olur. Halayda ifaçıların sayı 10-15 nəfərdən 80-100 nəfərədək ola bilər. Halay zamanı əl-ələ tutmuş kişi, yaxud qadınlardan ibarət dəstələr düzəldilir. Halayda da dəstənin başında duran rəqqasın əlində dəsmal və yaxud çubuq olur. Axırdakı isə “ayaqçı” adlanır...(Rəhmanlı, Nağıyev: 87) – göründüyü kimi, “Yallı” və “Halay”ın oxşar və nisbətən fərqli xüsusiyyətlərini qabardan sənətşünaslarımız Türk xalqının milli-mənəvi və mədəni dəyərlər sisteminin ayrı-ayrı komponentlər üzərində qurulduğu fikrini təsdiqləyirlər. Hər iki arqument ağlabatandır. Çünki at belində dağları, dərələri, yalları aşaraq, şücaətlə döyüşmək və qəhrəmanlıqlar göstərmək Türk oğlu Türkün alın yazısı, genetik irs faktorudur.

Tədqiqatçılarımızın – Azərbaycanın digər bölgələrində yayılmış yallıları: “Üçayaq”, “Üç addım”, “Qobustanı”, “Heratı”, “Köçdü balaban”, “Uzundərə”, “Almalı”, “Can lələ”, “El yallısı”, “İti yallı”, “Qazax yallısı” və sair adlar altında oynanılan çox məşhur, geniş yayılan və sevilən, dəstə halında icra olunan rəqs forması olaraq xalqı birliyə çağıran milli mədəniyyətimizin intellektuallıq simgəsi kimi dəyərləndirmələri təqdirəlayiq haldır. Uzaq keçmişdə Qarapapaqların 120 yallısı olub – deyə, Güney Azərbaycanın Urmiya əyalətinin Sulduz mahalında yaşayan Qarapapaq türklərinin çoxsaylı yallıları olduğundan qürurla söhbət açırlar. Ağsaqqallar və ağbirçəklərin söylədiklərinə əsasən məlum olur ki, ilin bütün günlərinə görə onların yallı hərəkətləri varmış. İrəvandan Sulduza köçən qarapapaqlar yallılarını unutmamış və bu günə qədər yaşatmışlar – fikrinin ardınca Sulduz bölgəsində indinin özündə də mövcud olan və əhali tərəfindən el məclislərində, toy və şənliklərdə, mövsüm mərasimlərində hər zaman sevə-sevə icra olunan yallı növlərinin adlarını çəkirlər: “İrəvan yallısı”, “Üçayaq yallı”, “Royna”, “Dolan”, “Tovlama”, “Həbirban”, “Qaraxan” və s. nümunə çəkə bilərik. Bunların arasında sözlə oxunub oynanılanları da mövcuddur. Bu yallıların biri belə sözlərlə başlanır:

İrəvan yollarında,

İpliyəm kollarında...

İzahı belədir: yəni, İrəvandan köçürülərkən, heç istəmirdim oradan ayrı düşəm, odur ki, yollarda kollara ilişə-ilişə gəlib bura çıxmışam. Paltarlarım, canım kol-kosa ilişərək qançır olub, ipliyə dönüb...(Rəhmanlı, Nağıyev, 2019: 87).

Təbii ki, Qarapapaq türklərinin məcburi surətdə yer-yurdlarından didərgin salındıqları bir zamanda mal-heyvanlarını da getdikləri yerə aparmaları və bu qaçaqaç-köçhaköçdə mal-davarın, qoyun-quzuların yununun kol-kosa ilişib, bu köçdən ağrılı bir xatirə kimi qalmasının yaddaşlarda silinməz izlər buraxmış tarixi faktlardır. Xalq öz acı taleyinin göynərtisini bayatılı-ağılı misralara köçürməklə təskinlik tapmağa, sınıq qəlblərini ovundurmağa çalışmışdır.

Heyvandarlıq, xüsusilə qoyunçuluq tərəkəmə türklərinin əsas məşğuliyyəti və sərvətidir. Qarapapaq türkləri harada mövcuddursa, orada da onların heyvandarlıq məhsullarından hazırladıqları çoxçeşidli ərzaq, mətbəx, əkinçilik, toxuculuq mədəniyyəti, bundan əlavə geyim, rəqs, aşıq-ozan, saz-söz sənəti də yaşayır.

Yeri gəlmişkən, araşdırmaçı İlqar İmamverdiyevin tədqiqatında Yallı havalarından yeddi musiqi nümunəsinin Sulduz mahalının toy-düyünlərində oynanılan yallılarda vokal şəkildə ifa olunduğu haqda məlumat verilir. Haqqında bəhs etdiyimiz həmin havalar bunlardır: “Aman-aman”, “Dalan”, “Üç ayaq”, “Qondaralı”, “Canıman”, “Ağır canıman”, “Orta canıman” (İmamverdiyev, 2007: 212-213).

Kütləvi qadın yalıllarından olan “Halay”, “Haxışda” və “Gülmeyi” son dövrlərə qədər geniş yayılmış rəqslər idi. Bir qayda olaraq ya əmək şəraitinə uyğunlaşmaq üçün və ya adət-ənənəyə əməl etmək naminə nəğmələrin bir qismi kollektiv şəkildə oxunmuşdur. Şübhəsiz ki, əl-ələ (qol-qola) tutub, rəqs edə-edə oxumaq birlikdə olmaq zərurətindən, hamının birgə çıxış etmək, eyni rəqsə qoşulmaq arzusundan, eyni ritmə daxil olmaq tələbindən irəli gəlmişdir (Rəhmanlı, Nağıyev, 2019: 81-90).

“Yallı” haqqında danışarkən, bu oyunun digər mütəhərrik oyunlarla müqayisədə həm daha qədim, həm də daha kütləvi mahiyyət daşıdığını qəbul etməli oluruq. Belə ki, Qobustan və Gəmiqaya rəsmlərində öz əksini tapan yallı gedən insanların təsvirləri bu qədim xalq rəqsinin daşıdığı mahiyyəti özündə aydın bir şəkildə əks etdirir.

### 3. Sulduz qarapapaqlarında yallının quruluşu və icra mexanizmi

Sulduz qarapapaqlarının bütün el şənlikləri, toy-düyünləri yallı ilə başlayıb, yallı ilə bitir. Yallı dəstəsinin əsas aparıcı qüvvəsi “yallıbaşı çəkən” adlanan şəxsdir ki, rəqsin düzgün icrası bu insanın fəaliyyətinə bağlıdır. Yallı ayaqla icra olunan rəqs növü olsa da, bütün bədən əzaları da ritmik hərəkətdən kənarda qalmır. Əvvəlcə kişilərin başladığı rəqsə tədricən qız-gəlinlər də daxil olub əl-ələ tutmaqla hərəkətləri musiqinin ritminə uyğun ahəngdarlıqla icra edirlər. Buna görə də, əvvəlcə az sayda adamla başlanan bu rəqsin səfi getdikcə o qədər artar ki, dəstə ilbizvari şəkil alaraq get-gedə yığılıb-açılar, qıvrılıb-dalğalanar (Pərizad, 2021: 94).

Qarapapaq ağsaqqallarının, ağbirçəklərinin söylədiklərinə görə, əvvəllər bu oymaqlarda ilin hər gününün özünə uyğun bir yallısı mövcud imiş. Yəni, hər münasibətlə bir yallı icra olunurmuş. Bunlara əsasən əmək yallıları aid imiş. Lakin zaman keçdikcə bu oyunların bəziləri tamamilə unudulub sıradan çıxsa da, bir çoxu olduğu kimi qorunub-saxlanmaqdadır. Hazırda el arasında yaşadılan yallılara misal olaraq, “İrəvan yallısı”nı, “Dalan”, “Üç təpik”, “Yanbasma”, “Susqayı”, “Qaraxan”, “Həbilban/Həbirban”, “Qazayağı”, “Çeçələ barmaq” və sair oyun havalarını göstərmək olar.

Yallılar ritm etibarilə müxtəlif cür icra olunar. Bu mənada, Sulduz qarapapaqları arasında “Yallı” rəqsinin müxtəlif quruluşlarda mövcud olan neçə-neçə növü vardır. Ağır və

yüngül şəkillərdə icra olunan “Yanbasma” yallısı dörd cür oynanılar. Əgər təkcə kişilərdən ibarət dəstə oynayarsa, daha yüngül, yəni cəld, qadınlı-kişili birlikdə oynanılarsa, qadınların olduğunu nəzərə almaqla daha ağır şəkildə icra olunar. Tək qadınlardan ibarət dəstənin oyunu nisbətən ağır hava ilə müşayiət olunar. Bəzən isə həm kişilərdən, həm də qadınlardan ibarət yallı dəstələri həm ağır, həm də yüngül havaların müşayiətilə yallı gedərlər. Yəni, bu zaman xüsusi qayda tətbiq olunmaz.

Yallının ifası zamanı pozulmayan qanunlardan biri budur ki, kimsə yallıbaşı çəkənin əlindən tovlama dəsmalını zorla ala bilməz. Bu halda iş o dərəcəyə gəlib çata bilər ki, araya qan düşər. Kimsə yallıbaşı çəkəndən tovlama dəsmalını almaq istəyirsə, bu halda gərək o, əvvəlcə həmin şəxsi dilə tutub yola gətirmək üçün ona bir xələt, yaxud müəyyən miqdarda cibxərcliyi verib razı salsın ki, sonra yallıbaşı çəkmək imkanı qazansın. Yallıbaşı çəkəni əvəzləmək funksiyasının bir mahiyyəti də həmin şəxsin yorulub əldən düşməsinin qarşısının alınmasıdır ki, bu işi də mütləq şəkildə bacaran adam boynuna götürməlidir.

Şərtlərdən digəri budur ki, ayıran gəlib yallıbaşı çəkənin əlindən tutan məqamda tovlama dəsmalı onun əlindən almaq qadağandır. Eyni zamanda, heç bir kişi xeylağına iki qız, yaxud gəlinin arasına girməyə haqq verilməz; bu, el içində xar olmağa bərabər sayılar. Əl-ələ yapışmış oğlan və qızın arasına girməyə də heç kəsin ixtiyarı yoxdur. Yallılarda bu qayda da var ki, oyundan öncə “ayıran” çıxmalı, sonra isə oğlan çıxmalıdır. Oğlan qızın əlini buraxıb ondan qabaq oyundan çıxarsa, bu, qıza qarşı xəyanət, bağışlanmaz günah sayıldığından, sonradan həmin oğlanın əlindən başqa heç bir qız yapışmaz.

Əgər bir qız yallıya qoşularkən istədiyi oğlanın əlindən yapışaraq rəqsə başlayarsa, öz məhəbbətini həmin oğlana gizli bir şəkildə izhar etmiş olur. Həmin vaxt oğlan da bu məhəbbətə razılıq əlaməti olaraq kənara duydurmadan ehmalca qızın əlini sıxarsa, bu, qıza olan sevgisinin cavabı kimi qiymətləndirilər. Qız da öz növbəsində oğlanın əlini azacıq sıxmaqla özünün “hə” cavabını verər. Beləliklə, yeni, sevgi üzərində qurulacaq gələcək ailə izdivacının ilk bünövrə daşı bu cür qoyular.

“Ayıranlar” oğlanların əllərindən yapışan kimi, oyunun bütün icrasını diqqətdə saxlayan ortadakı çalğıçılar bu işin mahiyyətini o dəqiqə anladıqlarından, onların qarşısına keçib, çalğı alətlərini onlara tuşlayaraq, daha ucadan çalmağa başlayar və bununla da şabaş istədiklərini bildirərlər. Oğlan da qızın qarşısında özünü daha qürurlu aparar və ehmalca əlini cibinə salıb bir neçə əskinas çıxararaq çalğıçıların başına səpələyər. Çalğıçılar da şabaşı yığaraq oğlana razılıq edib, digərlərinə üz tutarlar (Pərizad, 2021: 97).

Yallı rəqsinin ifası get-gedə olduqca təntənəli bir şəkil alar; belə ki, burada hər ifaçı öz hünərini göstərməli və şabaş səpməkdən çəkinməməlidir. Təbii ki, bu cür təntənəli mərasimlər və yallı oyunları əvvəllər daha çox olardı, indiki zamanda isə əsasən yaxın qohumlar və dost ailələr arasında keçirilən mərasim və şənliklər zamanı mağarlarda və geniş evlərdə baş tutar. Sevindirici haldır ki, Sulduz qarapapaqlarında yallı rəqsləri birləşdirici, şadlıq, sevinc və mübarizlik hissləri aşılayan bir qədim xalq oyun növü olaraq günümüzdə də böyük şövq və məhəbbətlə yaşadılmaqdadır (Məhərrəmli, 2026: 103-113).

Bunu da qeyd edək ki, əyləncələr zamanı yallılar, xüsusən Qarapapaq yallı rəqs havaları adətən müğənnilərin müşayiəti ilə, yəni tiringə oxumaqla daha möhtəşəm şəkil alardı. Belə müğənnilərdən Əsədulla Həqiqi, Rəhim Sübuti, Əkbər Pərvini, Hüseyn Sultani, Sultanəli Nəmazi (dünyasını dəyişmiş bu müğənnilərin boğazı çox yumşaq və səsləri daha zümzüməli idi) əhali arasında çox sevilirdilər. Hazırda həyatda olan müğənnilərdən Məhəmmədəli Mahmudi, Sövlət Qasımi (muğamat oxumaqda da bacarıqlıdır. Bu hər iki müğənninin uca və zümzüməli səsləri var), Əli və İsi Zarinin adını çəkməklə yanaşı, bu tiringə oxuyanların el şənliklərindəki əhəmiyyətli rolunu göstərmək istərdik (Urmulu).

Sulduzun adlı-sanlı çalğıçıları – məşhur qara zurna, ney (balaban), qoşa sümsüm (dillu düdək), duzala, yan düdəyi ustalarından Xudaverdi Əlizadə, Hüseyn Piri, Yədulla Hərtəs, Rəşid Qətari, Əli Karvansara, Əbas Heydəri və s. (dünyalarını dəyişmişlər) və hazırda həyatda olub fəaliyyət göstərən ifaçılardan Məhəmməd Hüseyn Cəfəri, Rza Hüseynzadə, Yunis Vəlizadə, Qüdrət Təqizadə, Məhəmməd, Ustad Əkbər İzdani və digərlərini göstərmək olar. Toy-dünbək: dünyasını dəyişmiş Əkbər Kuşafər, Ərşad Əizadə, Mustafa Əlizadə, yaşayanlardan Cəmşid, Yusif Əlizadə, Yəqub Əlizadə, Behzad Cövsət (Behzad nağara və qoşanağara ustası, eyni zamanda qabiliyyətli bir nağaraqoşandır (nağara düzəldən – Q.M.)) və s. öz sahələrinin məşhur sənətkarlarıdır (Urmulu).

Sulduz Qarapapaq türklərinin xalq havalarının bir çoxu hazırda da əhali arasında çox məşhurdur. Elin düyün və şənliklərində, müxtəlif mərasimlərində müntəzəm surətdə ifa olunan, sevilən xalq havaları bunlardır: "Köçgünən gəl", "Lala gəlin", "Yüngül lala gəlin", "Əylənməz", "Tovlama gəlin", "Sürməli gözlər", "Ay qız, ay qız, naz eyləmə", "Döndərin qızlar", "Dəstə narın gülə", "Dur gəl, dur gəl sabah oldu", "Ay sini-sini", "Otaq otağı", "Bir yana", "Sındırma", "Həbirban", "Ay bəri bax", "Dəlilər, divanələr", "Ay keçdi-keçdi", "Dağlarının dalın dəlləm", "Sındırır badamı" və s. (İmamverdiyev, 2007: 213-214).

**Nəticə**

Xalq rəqsləri onları yaradan hər hansı bir xalqın həyatında olduqca böyük əhəmiyyət daşıyan qədim, çoxəsrlik mədəniyyət və incəsənət növüdür. Azərbaycan yallıları da bu mənada, insanların ruh hallarının qaldırılmasında, onlara birlik, həmrəylik, humanistlik, xoşbəxtlik, cəsarət və mərdlik kimi yüksək insani hiss və keyfiyyətlər aşılanmasında müstəsa rola malik, misli-bərabəri olmayan xalq sənətkarlığı nümunələridir. Yaşı minilliklərə dayanan yallı xalq rəqslərinin günü bugün də yaşadılması, böyük ruh yüksəkliyi ilə elin şənlik və mərasimlərində ifa edilməsi milli mədəniyyətimizin, qəhrəmanlıq tariximizin qədimliyindən xəbər verməklə yanaşı, dünya durduqca yaşadılacaq milli kimliyimizin real göstəricisi olduğunun sübutu kimi özünü təsdiqləyən amillərdəndir. Güney Azərbaycanımızın Sulduz mahalında yaşayan Qarapapaq türklərinin milli-mənəvi dəyərlərimizə sadiqliyi Qarapapaq yallılarını ifa edərkən nümayiş etdirdikləri birlik, bütövlük arzu və ideallarında özünü aydın şəkildə büruzə verməkdədir.

**Qaynaqlar**


İmamverdiyev, İ. (2007). *Azərbaycan və İran aşıq sənətinin qarşılıqlı əlaqələri.* Bakı: Nafta. Pres yayın evi. 978 səh. Səh.213-214.

Məhərrəmli, Q. (2026). *Sulduz folklor mühiti etno-mədəni dəyərlər müstəvisində.* Bakı: UniPrint. 256 səh. Səh. 103-113.

Nərimanoğlu, M. (2013). *Yallılar. Xalq yaradıcılığı. "Azərbaycan" qəzeti.* 31 yanvar, 2013, səh. 7.

Pərizad, M. (2021). *Sulduz bölgəsi. Folklor xəzinəsi. Qarapapaq folkloru.* Urmiya: Ülkər. 335 s. Səh.97.

Rəhmanlı, Ə., Nağıyev E. (2019). *Rəqs tariximizə bir nəzər. "Konservatoriya" jurnalı.* №2(44). Səh.81-90.

Rəhmanlı, Ə., Nağıyev, E. Rəqs sənəti UOT: 793.3 – Rəqs tariximizə bir nəzər, 87.

Urmulu, T. http://urmulutaymaz.blogfa.com/

**Etik, Beyan ve Açıklamalar**

**1.** Etik Kurul izni ile ilgili;

☑ Bu çalışmanın yazarı Etik Kurul İznine gerek olmadığını beyan etmektedir.

**2.** Bu çalışmanın yazarı araştırma ve yayın etiği ilkelerine uyduklarını kabul etmektedir.

**3.** Bu çalışmanın yazarı kullanmış oldukları resim, şekil, fotoğraf ve benzeri belgelerin kullanımında tüm sorumlulukları kabul etmektedir.

**4.** Bu çalışmanın benzerlik raporu bulunmaktadır.